İPƏK YOLU, No.3, 2022, səh.35-40

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**Murad Sevdimalıyev**

Naxçıvan Universiteti, Naxçıvan, Azərbaycan
e-mail: sevdimaliyevmurad@gmail.com

**Xülasə.** Məqalədə Naxçıvan Muxtar Respublikada iqtisadiyyatın şaxəli inkişafı istiqamətində dövlət tənzimlənməsi və nəzarəti təhlil olunur. Göstərlir ki, iqtisadi münasibətlərin tənzimlənməsi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası üçün həyata keçirilən şaxələndirmə tədbirlərinin uğurlu olması üçün xüsusi əhəmiyyət daşıyır.

**Açar sözlər:** dövlət tənzimlənməsi, muxtar respublika, kənd təsərrüfatı, inkişaf.

## GOVERNMENT REGULATION OF ECONOMIC DIVERSIFICATION IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

**Murad Sevdimaliyev**
*Nakhchivan University, Baku, Azerbaijan*

**Abstract.** The paper analyzes the state regulation and control in the direction of diversified development of the economy in the Nakhchivan Autonomous Republic. It is shown that the regulation of economic relations is of particular importance for the success of the diversification measures implemented for the Nakhchivan Autonomous Republic, which lives in a blockade.
**Keywords:** state regulation, autonomous republic, agriculture, development.

## ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ ДИВЕРСИФИКАЦИИ ЭКОНОМИКИ В НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

**Мурад Севдималыев**
*Университет Нахичевань, Нахичевань, Азербайджан*

**Резюме.** В статье проводится анализ государственного регулирования и контроля в направлении многоотраслевого развития экономики Нахчыванской Автономной Республики. Показано, что регулирование экономических отношений имеет особое значение для успеха диверсификационных мероприятий, реализуемых для Нахчыванской Автономной Республики, живущей в блокаде.
**Ключевые слова:** государственное регулирование, автономная республика, сельское хозяйство, развитие.

## 1. Giriş

Təcrübələr göstərir ki, hər bir iqtisadi sistem fəaliyyət göstərdiyi dövrlər və mövcud şərait daxilində böyük çətinliklərlə qarşılaşır. Əsasən də qloballaşma şəraitində tez-tez qarşılaşdığımız belə situasiyalar tədricən sonradan böhranlara və problemlərə gətirib çıxarır ki, nəticədə dövlətlə əhali, dövlətlə iqtisadiyyat arasında əlaqələrin qırılmasına və makroiqtisadi qeyri-sabitliyə səbəb olur. Bu cür problemlərin əvvəlcədən müəyyən edilməsi, onlara qarşı hüquqi və əməli müstəvidə tədbirlərin görülməsi, iqtisadi münasibətlərin normal fəaliyyətinin təmin edilməsi baxımından dövlətin rolu artıq nəzəri və praktiki araşdırmalar baxımından sübuta yetirilmişdir.

Dövlətin iqtisadiyyatı tənzimləmə obyektlərinə iqtisadi tsikllər, iqtisadiyyatın sahə, regional və sosial sturukturu, məşğulluq və kadr hazırlığı, əhalinin gəlirləri və həyat səviyyəsi,

əmək münasibətləri, pul dövriyyəsi, qiymətlərin səviyyəsi və antiinflyasiya prosesləri, investisiya aktivliyi, elmi-tədqiqat və təcrübə-layihə işləri, rəqabət şəraiti və antiinhisar tədbirləri, tədiyyə balansı, ətraf mühit, xarici iqtisadi əlaqələr, tənzimləmə subyektlərinə isə iqtisadi maraqların daşıyıcıları (əhali, təsərrüfat subyektləri), iqtisadi maraqları ifadə edənlər (ictimai təşkilatlar, həmkarlar ittifaqları), iqtisadi maraqların icraçıları (dövlət orqanları, nazirliklər və s.) aid edilir [1, s. 8].

## 2. Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı üçün qəbul edilən proqramlar

Naxçıvan Muxtar Respublikasında da ölkəmizdə umumi olaraq izlənən iqtisadi siyasət strategiyası mövcuddur və qəbul edilən hər bir proqram, Ali Məclisin Sədri tərəfindən imzalanan bütün fərman və sərəncamlar dövlət başçısının qəbul etdiyi proqramlara, Azərbaycan Respublikasının Konstitusiyasına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, qanunvericilik aktlarına və digər hüquqi-normativ sənədlərə əsaslanmaqdadır. Muxtar respublikanın da iqtisadi inkişafı və əlavə tədbirlərin görülməsi istiqamətində dövlət dəstəyinin göstərilməsi ilə bağlı qəbul edilən proqramların, imzalanan fərman və sərəncamların bəzilərinə aşağıdakıları nümunə göstərə bilərik:

- Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008);
- Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2009-2013, 2014-2018, 2019-2023);
- 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı;
- Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər);
- Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2018)
- Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı (2019)
- 2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı;
- Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı (2018);
- Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı (2013-2015-ci illər);

- Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram (2019-2022-ci illər) və s [5].

Bütün bu hüquqi tədbirlərdə əsas strateji hədəf Naxçıvanın çətin blokada şəraitində olmasına baxmayaraq qarşılaşdığı çətinlikləri aradan qaldırmaq və davamlı inkişaf sahəsində qarşıya qoyulan məqsədlərə asanlıqla nail olmaqdır.

### 3. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın şaxələndirilməsində dövlət nəzarəti

Muxtar respublikada iqtisadi inkişafın təmin edilməsi və və iqtisadiyyatın dövlət tənzimlənməsi çoxşaxəli xarakterə malik olmaqla burada yerləşən əsas dövlət strukturları və qanunvericiliklə nizamlanmaqdadır. Bu istiqamətdə həyata keçirilən işlərdə başlıca orqanlar aşağıdakılardır:

1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti
3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi
4. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
5. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi
6. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi
7. Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası Ərazi İdarəsi

Bu qurumlar hər biri malik olduğu imkanlarla öz səlahiyyətləri çərçivəsində iqtisadiyyatın inkişafı istiqamətində lazımi tədbirləri görməklə qarşıya qoyulmuş məqsədlərə nail olmaq yolunda əhəmiyyətli addımlar atırlar. İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri-konseptual qaydalarına baxış yetirsək görərik ki, buraya iqtisadi tənzimləmənin metodlarından tutmuş aqrar siyasət, pul-kredit siyasəti, əmək bazarı və məşğulluğun tənzimlənməsi, regional iqtisadi inkişafın tənzimlənməsi, antiinhisar və intiinflyasiya siyasəti, büdcə tənzimlənməsi, monetar-fiskal siyasət, makroiqtisadi mühitin tənzimlənməsi və digər elementlər aiddir. Qeyd olunan işlərin görülməsində isə adı çəkilən dövlət qurumları özlərinə aid olan funksiyalar və hüquqlar çərçivəsində əməli tədbirləri həyata keçirərək uzunmüddətli dövr üçün iqtisadi dayanıqlılığın təmin edilməsində üzərlərinə düşən öhdəlikləri yerinə yetirirlər.

Bazar münasibətləri şəraitində dövlət regional sosial-iqtisadi inkişafın tənzimlənməsi üçün birbaşa və dolayı metodlardan istifadə edir. Dövlət büdcəsindən regional büdcələrə dotasiyaların verilməsi, regional proqramların və layihələrin qəbul edilməsi, regionlarda dövlət sifarişlərinin reallaşdırılması birbaşa metodlara aid edildiyi halda, kredit və vergi güzəştləri həyata keçirmək, məşğulluğun səviyyəsini artırmaq üçün sahibkarlara xüsusi imtiyazlar nəzərdə tutmaq, əhalinin mənzil və ərzaq təminatını yaxşılaşdırmaq, xarici və yerli investorlar üçün əlverişli mühit yaratmaq, həmçinin azad iqtisadi zonaların yaradılması işini sürətləndirmək, əhalinin maarifləndirilməsi istiqamətində işlər görmək və başqa tədbirlər

dolayı metodlara aid edilir. Bu metodlara həmdə iqtisadi metodlar deyilir [1, s. 52]. Birinci adını çəkdiyimiz üsul və metodlar əsasən bilavasitə mərkəzi hakimiyyət orqanı tərəfindən həyata keçirildiyi halda, sonra gələnlər tabe orqanlar və strukturlar tərəfindən icra olunmaqdadır. Naxçıvan MR-da bu yöndə əsas işi ən ali orqan hesab edilən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir. Naxçıvan Muxtar Respublikasının Konsitusiyasına nəzər saldıqda görərik ki, iqtisadi inkişafla bağlı bəhs etdiyimiz məsələlərin hamısı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar və həll etdiyi məsələlərdə öz əksini tapmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının iqtisadi və vergi siyasətinə uyğun olaraq vergiləri, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətlərini, turizm, sosial təminat və ətraf mühitin qorunmasını, səhiyyə, elm və mədəniyyətlə bağlı ümumi qaydaları müəyyən edərkən, Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi, Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi kimi iqtisadi məqsədli məsələləri də həll edir [3]. Göründüyü kimi ən önəmli strateji məqsədli proqramlar və ümummilli layihələr dövlətin iqtisadiyyatda rolu kimi Ali Məclisin səlahiyyətlərində öz əksini tapmışdır. Muxtar Respublika Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasınm ali vəzifəli şəxsi kimi bu istiqamətdə qanunları imzalayır və dərc edir. Məhz yuxarıda qeyd elədiyimiz bütün sosial-iqtisadi inkişafla əlaqədar olan proqramlar, tədbirlər planı və digər iqtisadi məqsədli layihələr Ali Məclisin Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilir. Xüsusən də blokada şəraitində yaşayan muxtar respublika üçün ən vacib məsələnin qida təhlükəsizliyinin təmin olunması və əhalinin keyfiyyətli ərzaqla təminatı olduğunu nəzərə alsaq, son illər ərzində kənd təsərrüfatı ilə əlaqədar xeyli sərəncamların qəbul edildiyi və tədbirlərin icra olunduğunun şahidi ola bilərik. Onu da qeyd edək ki, Ali Məclisin Sədri qəbul etdiyi qərarlar və imzaladığı fərmanların icrasının gedişatı ilə vaxtaşırı olaraq birbaşa maraqlanır, bölgələrdə olur, sahibkarlar və fermerlərə mütəmadi olaraq görüşlər keçirir. Qəbul edilmiş sərəncamlara uyğun olaraq son illər ərzində regionda meyvə - tərəvəzçiliyin, kartofçuluğun, arıçılığın, heyvandarlığın, taxılçılığın və s. kənd təsərrüfatı məhsulları sahələrinin inkişafında xeyli irəliləyişlər ortaya çıxmış, turizm fəaliyyəti genişlənmişdir.

Qeyd olunan fərdi təsərrüfatların imkanlarını artırmaq, istehsal edilən məhsulların nümayişini təşkil etmək, kənd təsərrüfatı sahələrini stimullaşdırmaq və sahibkarlıq fəaliyyətini inkişaf etdirmək məqsədilə muxtar respublika səviyyəsində son illərin adət halını almış əsas tədbirlərindən biri kənd təsərrüfatı məhsulları üçün festivalların keçirilməsidir. Hər il müxtəlif sahələr üzrə bir neçə dəfə keçirilən festivallarda muxtar respublikanın ayrı-ayrı rayonları onlara məxsus məhsullar və sahibkarlara kompleks şəkildə yüksək səviyyədə iştirak edir və istehsal etdikləri yüzlərlə ad altında olan məhsullarını nümayiş etdirirlər. Hər il müxtəlif fəsillərdə bir neçə gün ardıcıl olaraq Naxçıvan şəhərində “Göycə”, “Bal”, “Kətə”, “Ailə təsərrüfatı məhsulları” festivallarının keçirilməsi əhalinin coxsaylı təbəqəsinin marağını cəlb etməklə yanaşı, buraya gələn qonşu ölkə vətəndaşları və qonaqlar tərəfindən də

təqdirəlayiq hal kimi qiymətləndirilir. Onu da qeyd edək ki, adı çəkilən bu festivallar Naxçıvan şəhəri ilə bərabər, rayonların özündə də mütəmadi olaraq keçirilir və məhsullar sərgi olunur. Ümumi olaraq belə bir qənaətə gələ bilərik ki, kənd təsərrüfatı məhsulları üzrə təşkil edilən yarmarkalar və keçirilən festivallar dövlətin əsas səyi və nəzarəti altında baş tutur. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, həmçinin rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə bu tədbirlər yüksək səviyyədə təşkil edilir və vətəndaşların xidmətinə verilir.

Muxtar respublikada iqtisadi inkişafın təmin edilməsinə dövlət dəstəyinin göstərilməsi yönündə nəzərə çarpacaq əsas məsələlərdən biri kimi aidiyyatı dövlət orqanlarının bölgələrdə keçirdikləri tədbirlərdir. Əsasən də kənd təsərrüfatının regionlarda inkişafını dəstəkləmək üçün Kənd Təsərrüfatı Nazirliyi və rayon icra hakimiyyətlərinin nümayəndələri ilə fermerlər və sahibkarlar arasında mütəmadi olaraq tədbirlər, seminarlar təşkil edilir. Sahibkarlar hüquqi, iqtisadi baxımdan maarifləndirilir, xəstəliklərə və zərərvericilərə qarşı mübarizə, aqrotexniki tədbirlər, əkin, biçin, suvarma, torpaqlara qulluq qaydaları və digər mühüm məsələlər baxımından seminar-müşavirələrə cəlb olunur.

Kənd təsərrüfatı üçün qəbul edilən proqramların icrası işini daha da sürətləndirmək, nəzərdə tutulan tədbirləri uğurla həyata keçirmək üçün “Toxumçuluq haqqında” Azərbaycan Respublikasının qanunu, “Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında”, “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları qüvvəyə minmişdir. Bu sərəncamlar aqrar sektorun problemlərinin həlli istiqamətində mühüm məsələlərin həyata keçirilməsini lazımınca sürətləndirmişdir [2, s.30]. Hesab edirik ki, bu və ya digər istiqamətdə müəyyən olunmuş qanunvericilik prizmasına uyğun olaraq ayrı-ayrı regionlarda bütün struktur bölmələrinin səlahiyyətlərini daha da artırır və onların üzərinə yeni öhdəliklər qoyur. Muxtar respublikada da geniş, ümumi qəbul olunmuş proqramlardan əlavə həmdə, ayrı-ayrı strukturlar və sahələr üçün də proqramlar hazırlanmışdır. Misal üçün, “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Ali Məclis Sədrinin Sərəncamı, “Bərəkət Toxumçuluq” MMC təsis edilməsi aqrar sektorun inkişafı istiqamətində xeyli mühüm addımlar hesab edilə bilər. Onu da qeyd eləmək yerinə düşər ki, əvvəlki illərdən fərqli olaraq hazırda muxtar respublikanın bütün rayonlarında yazlıq və payızlıq əkinlərin aparılmasında xeyli məhsuldarlığı ilə seçilən müxtəlif növ toxum sortları fermerlər üçün yerli təşkilatlar və şirkətlər tərəfindən təmin olunmaqdadır.

Təbii ki, yaradılan investisiya mühiti və mövcud sahələrə ayrılan diqqət aqrar, turizm, sənaye və digər sahibkarlıq subyektləri üçün yüksək ixtisaslı, müasir dünyagörüşlü kadrlara ola tələbatı daha da artırmaqdadır. Muxtar respublikada bu istiqamətdə də işlərin görülməsində dövlət tənzimlənməsini xüsusi olaraq vurğulamaq lazımdır. Belə ki, qısa şəkildə bəzi sərəncam və fərmanların adlarını aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi” haqqında Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı (2019);

2. “Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin yaradılması barədə” Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı (2018);

3. “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu”nun yaradılması haqqında Naxçıvan MR Ali Məclis Sədrinin Sərəncamı (2019);

Bu fərman və sərəncamlar son illəri əhatə edir və yaradılan orqanlar artıq öz fəaliyyətlərini uğurla icra etməkdədirlər. Xüsusən də “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi” haqqında Sərəncam təhsil və elm sahəsində əsas islahatlardan biri kimi gənclərin potensialının ortaya çıxarılması, yeni ideyaların gerçəkləşməsi və startap layihələrinin işə düşməsi üçün xeyli əhəmiyyətli hesab edilir.

**Nəticə.** Beləliklə, iqtisadi inkişafın şaxələndirilməsi yönündə dövlət tənzimlənməsi ilə bağlı aparılan araşdırmalar onu deməyə əsas verir ki, bazar münasibətləri şəraitində iqtisadi əlaqələrin tənzimlənməsi, makroiqtisadi sabitliyi qorumaq və diversifikasiya tədbirlərini effektli etmək üçün dövlət tənzimlənməsi vacib amildir. Son illər ərzində ixracın təşviq edilməsi və iqtisadiyyatın şaxələndirilməsi üçün ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında xeyli dövlət nəzarəti altında olan işlər həyata keçirilmişdir ki, bunlara regionların iqtisad-sosial inkişafı ilə bağlı proqramlardan tutmuş, buiznes mühitinin canlandırılması, kənd təsərrüfatı üçün fərman və sərəncamları göstərə bilərik. Muxtar respublikada müstəqil iqtisadi siyasətin həyata keçirilməsinə baxmayaraq ölkəmiz üçün izlənən ümumi iqtisadi siyasət konsepsiyası burada da uğurla yerinə yetirilməkdədir. Burada son illər bütün sahələrdə əhəmiyyətli proqramlar qəbul edilir və onların icrasına artıq başlanılıbdır. Kənd təsərrüfatının inkişaf etdirilməsi, onun ayrı-ayrı bölmələrinin fəaliyyətinin yaxşılaşdırılması, festivalların və yarmarkaların təşkil olunması, kadr hazırlığı istiqamətində görülən işlər, turizmin inkişafı yönündə dövlət əhəmiyyətli tədbirlər və digər məsələlər iqtisadiyyatın gələcək inkişafı istiqamətində dövlətin xüsusi baxışı və nəzarətini ortaya qoymaqdadır.

## Ədəbiyyat

1. Əhmədov M.A., Hüseyn. A.C. (2011), İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı: İqtisad Universiteti, 120 s.
2. İbrahimov İ. (2007), Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı, Sada, 296 s.
3. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, (2010), Bakı: Adiloğlu, 120 s.
4. Nadirov A. (2012), Azərbaycan iqtisadiyyatının daima yüksələn müstəqillik dövrü, Bakı, CBS Polygraphic production, 360 s.
5. http://www.serqqapisi.az/